# Sözün zirvəsinə gedən yol




*Hidayət "Zəngəzurda doğuldum", "Əbilov, Zeynalov və oğulları" nəşriyyatı, 2005-ci il.*

*"Zəngəzurda doğuldum" kitabında görkəmli şair-publisist, istedadlı dramaturq, peşəkar tərcüməçi, səriştəli naşir, tanınmış dövlət adamı - ictimai xadim, Azərbaycanımızın sayılıb-seçilən yazıçısı, zəhmətkeş, cəfakeş qələm adamı Hidayət haqqında onun qələm dostlarının, tənqidçilərin, tədqiqatçıların, ziyalıların, oxucuların ürək sözləri, könül çırpıntıları, fikirləri, ədəbi qənaətləri, fəlsəfi-poetik düşüncələri toplanmışdır. Kitaba yüz otuz nəfər müəllifin yüz altmış məqaləsi daxil edilmişdir.*

*Altı yüz səhifəlik həcmi olan məqalələr toplusu xronoloji ardıcıllıqla elə düzülmüşdür ki, Hidayətin bir yaradıcı kimi keçdiyi ömür yolunu biz də eyni ardıcıllıqla izləyə bilirik.*

Kitab həm Hidayətin yaratdığı ədəbi əsərlərə, həm də onun bir şair - vətəndaş kimi apardığı mübarizələrə, keçdiyi keşməkeşli, çətin, eyni zamanda zəngin və məhsuldar həyat yoluna güzgü tutur, onun hərtərəfli yaradıcılığını izləməklə yanaşı, işıqlı, xeyirxah, xalqına, torpağına bağlı kamil, yetkin, mənəvi dəyərlərimizin zirvəsi sayılacaq parlaq şəxsiyyətinə bütün səmtlərdən, bütün yönlərdən işıq salır.

Kitab Hidayətin "Zəngəzurda doğuldum" şeri ilə açılır. Bu, şairin yaradıcılığı üçün xarakterik olan bir şeirdir. Hidayətin bir vətəndaş kimi böyüklüyü var bu şeirdə.

Hidayətlə ünsiyyətdə olanlar onun doğulduğu torpaqdan söhbət düşəndə necə sarsıldığının, kövrəldiyinin, eyni zamanda Zəngəzur, Mığrı, Maralzəmi deyəndə necə qürur hissi keçirdiyinin, əzəli və əbədi Azərbaycan torpaqlarının havası, suyu, gözəlliyi ilə fəxr etdiyinin dönə-dönə şahidi olublar.

**Ömrum üççə misralı**
**Bir yarımçıq bayatı!**
**Bu misralar doğulub**
**Səyyah ayaqlarımın,**
**Sonsuz soraqlarımın,**
**Leysan yağışlarımın,**
**Heyrət baxışlarımın,**
**Nidası, zərbəsiylə.**
**Axırıncı misrası**
**Yazılmayıbdı hələ...**

Qələm dostumuz "axırıncı misrası yazılmayıbdır hələ" deyəndə nəyi nəzərdə tutub görəsən?!

**... Zəngəzurda doğuldum,**
**İrəvanda yaşadım,**
**Bakıda öləcəyəm...**

-həqiqətinə söykənən şair ilhamı bu bayatının son-axırıncı misrasını nə zaman yazacaq, necə yazacaq?

Bizə elə gəlir ki, Hidayət Azərbaycanımızın tarixi torpaqlarının geri alınacağı günü, şairin doğulduğu, boya-başa çatdığı Zəngəzur mahalının yağı düşmənlərdən azad olunacağı anı nəzərdə tutub bu sətirləri yazanda. Bu bayatının axırıncı misrası tarixə qızıl hərflərlə yazılacaq "Qələbə" olacaq - tarixin, zamanın haqsızlığına məruz qalmış böyük bir xalqın qələbəsi, uzun illərdir qəzəbindən zəncir çeynəyən qəhrəman ordumuzun qələbəsi, ilkinliyə, təmizliyə, saflığa can atan yurd həsrətli bir oğulun qələbəsi, nəhayət, Vətən ağrılarıyla sinəsi göyüm-göyüm göynəyən vətəndaş bir şairin qələbəsi, şeirin, sözün qələbəsi...

Hidayət Azərbaycan Dövlət Universitetini (BDU) bitirdikdən sonra bir müddət doğma kəndində müəllim, məktəb müdiri işləyib. Sonra "Sovet Ermənistanı" qəzetində müxbir, ədəbi işçi kimi çalışıb. Elə oradan da onu C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrına direktor təyin ediblər. O, 1968-ci ildən 1984-cü ilədək bu teatra ləyaqətlə rəhbərlik edib. 24 yaşından böyük bir kol-

lektivin birinci şəxsi olan Hidayət bu illər ərzində şair, publisist, nasir, tərcüməçi və dramaturq kimi boy göstərməyə başladı. O, bu kollektivdə böyüdü, yetkinləşdi, Vətənin, torpağın sayılıb-seçilən ədəbi simasına, layiqli vətəndaşına çevrildi, iki xalqın ədəbiyyatı, incəsənəti arasında mənəvi körpüyə döndü.

Ermənistan ədəbiyyatının ən qiymətli ədəbi nümunələrini dilimizə çevirdi, nəşr etdirdi, eyni zamanda Azərbaycan ədəbiyyatının örnək sayılan yazıçılarının qonşu dildə səslənməsinə, yayılmasına yardımçı oldu. Lakin ermənilərin milli münaqişə zəminində davaları hələ o zamandan səngimək bilmir, çox vaxt gizli, bəzən də açıq şəkildə davam edirdi. Hidayətin bir Azərbaycan yazıçısı, ziyalısı kimi bu illər ərzində nələr çəkdiyini təsəvvür etmək o qədər də çətin deyil. Ermənilərin uydurma genosid günü (hər il aprel ayının 24-də bu orada qeyd olunur) ərəfəsində hansı hoqqalardan çıxdığı, orada yaşayan soydaşlarımızın başına hansı faciələri, müsibətləri gətirdiyi Hidayətin ağrılı, göynəkli xatirələrindən, söhbətlərindən bizə yaxşı məlumdur.

Hidayət öz millətinin öndə gedən bir oğlu - ünlü bir şairi, ziyalısı kimi bütün bu dəhşətlərə dözürdü, dözməyi bacarırdı. Torpaq, yurd sevgisi, vətən, millət təəssübkeşliyi bu dözümün, bu dəyanətin əsil mənbəyi idi. O, Azərbaycanımızın əbədi və əzəli torpağından-doğma Zəngəzurundan, Mığrısından, Maralzəmisindən, nəhayət, əsası Rəvanqulu xan tərəfindən qoyulmuş İrəvanından - suyuna, havasına, duzuna-çörəyinə ömür qıydığı doğma məkanından, elindən-ulusundan, evindən-ocağından, onu qardaş kimi sevən doğmalarından, soydaşlarından ayrılmaq istəmirdi. O, buna məcbur oldu, onu buna məcbur etdilər. Bizə dost, qardaş deyənlərin ikiüzlü siyasəti, düşmən gedişləri, paxıllığı, məkri Hidayəti bezdirdi, həssas, duyumlu şair qəlbini doğmalığa, yaxınlığa, ülfətə, mehribançılığa səslədi.

Hidayət İrəvandan köçdü. Əməkdar jurnalist İsrafil Məmmədov "İstək gerçəkliyi" məqaləsində bu köçü çox təsirli şəkildə, ürək, könül yanğısıyla təsvir edir: "Səksən dördüncü il, bənzərsiz anların doyumsuz və pak aydınlıqlarını boğmağa tələsən duyumsuz, darıxdırıcı, sıxıntılı bir tutqun axşam. Doğma bir təmas ocağı, işıqlı bir ülfət çırağı köçür. Dönüşsüz köç özgə olur. "İrəvan-Bakı" qatarı bir azdan tərpənəcək. Səkidə üz-üzə, amma bambaşqa ovqatda, dinməz-söylənməz dayanmışıq. Danışan deyim dolu, duyum dolu mənalı baxışlardır. Yenə qolumdan dartdı. Fəqət qeyri-adi suallar yağdırmadı. "Bu yolla çatanda Qərbəzaya, oradan niyə qalxmırlar aya" demədən aralandı, ağır-ağır addımladı, aramla vaqona qalxdı. Çatanda ayrılıq dəmi, adətən bütöv paralanır, parçalanıb ayrılır, təsəlli - təskinlik məlhəmi vaxtında özünü yetirməsə dözməz, daha bərk göynəyər, daha gur fəryad qoparar ürək! Kəráminə min şükür, yaradanım! Bakıya əliboş getmirdi Hidayət. Əməkdar mədəniyyət xadimi adı, Yazıçılar İttifaqının Azərbaycan bölməsinin rəhbəri, çağdaş ruhlu şeir kitabları və səhnə əsərlərinin müəllifi, İrəvanın ictimai həyatı və ədəbi mühitində büdrəmək bilməyən yerişi, əyilmək bilməyən duruşu, vətəndaşlıq borcuna vəfadarlığı, soykökünə bağlılığı ilə şərəfli ad qazanmış, qızmar milli münasibətlər zindanında yetərincə döyülüb bərkimiş zəkalı ziyalı kimi gedir və çiynində mənalı başlanğıcların, mənəvi dəyərlərin çox sanballı bir yükünü, əlində qadir və qabil qələmini, könül dəftərində ünü sabaha yetəcək, hədəfi sərrast döyəcək kəsərli sözünü, bir də hələ gerçəkləşməli olan ülvi istəklərin nadir çələngini aparırdı".

Biz İsrafil Məmmədovun ürəkdən gələn, son dərəcə səmimi bu sözlərini Hidayətin İrəvanda yaşadığı dövrdəki yaradıcılıq uğurlarına, teatrdakı rəhbər nüfuzuna, səhnə əsərlərinə, ən başlıcası isə ictimai xadim kimi fəaliyyətinə məqalə və resenziya həsr edən bütün müəlliflərin çoxsaylı fikirlərinə, dəyərli düşüncələrinə epiqraf adlandırardıq.

Bu kitaba Azərbaycanın görkəmli xalq şairi, akademik B.Vahabzadənin Hidayət haqqında ayrı-ayrı vaxtlarda yazdığı üç məqaləsi daxil edilmişdir. Məqalələrdən ikisi Hidayətin kitablarına yazılmış ön sözüdür. "Vəzn sərbəstliyi - fikir sərbəstliyi" adlanan bir məqaləsində Bəxtiyar müəllim hələ 1977-ci ildə Hidayətin gənc yaşlarında onun nəyə qadir olduğunu duymuş, vaxtında ona ustad-ağsaqqal xeyir-duası vermişdi. Bəxtiyar müəllim yazırdı: "Həm tərcümələri və həm də şəxsi yaradıcılığı ilə Hidayət respublikamızdan kənarda çox böyük işlər görür. Biz ona tutduğu bu yolda böyük uğurlar diləyirik. Ümumiyyətlə, Hidayət yaradıcılığı daim möhtərəm ustadın diqqət dairəsində olmuş, o, həmişə Hidayət şəxsiyyətinə, Hidayət qələminə öz isti, səmimi münasibətini bildirmişdir: "Hidayətin poeziyasında bütün bu axtarış yönümləri göstərir ki, o, dayazlıqlarda dolanmağa can atmadan insan yaşantılarının dərinliklərinə üz tutur və bu məqamda şeir



"çağrılmış bayatı"ların qəliblərini qırır, sosial önəm kəsb edən fikir və yaşantılarla yüklənir".

Hidayət yaradıcı bir şəxsiyyət kimi özlüyündə bir fenomendir. Kitabı vərəqlədikcə onun bu fenomenliyi birər-birər etiraf olunur, qələmindən çıxan ədəbi nümunələr geniş təhlilə çəkilir, şairlər, yazıçılar, tənqidçilər, jurnalistlər öz qələm dostlarının həqiqi poetik dəyərini ürəkdən gələn səmimi sözlərlə ifadə edirlər.

Azərbaycan ədəbiyyatının ən məşhurlarından tutmuş, ən sıravi qələm adamlarına qədər hamı, hər kəs bu sadə, səmimi, xeyirxah, etibarlı, əlindən gələn bütün yaxşılıqları qələm qardaşlarından əsirgəməyən həmkarları, dostları, əqidə və fikirdaşları Hidayət barədə yazmağa, söz deməyə can atmış və yeri gəldikcə bu arzu və istəklərini reallaşdırmağa çalışmışlar.

Bu kitabda tanınmış şair və yazıçılarımızdan B.Vahabzadənin, N.Xəzrinin, X.R.Ulutürkün, S.Tahirin, Anarın, N.Həsənzadənin, İ.Tapdığın, T.Mahmudun, T. Mütəllibovun, Ə.Hacızadənin, S. Azərinin, N.Hacızadənin, K.Kələntərlinin, M.Süleymanlının, M.İsmayılın, S.Rüstəmxanlının, Z.Yaqubun, M.Aslanın, Altay Məmmədovun, İ.İsmayılzadənin, S.Sərxanlının, R.Heydərin, Z. Xəlilin, S.Məmmədzadənin, K.Abdullanın, Tofiq Abdinin, M.Ələkbərlinin, A.İsmayıloğlunun, Ə.Vəkilin, Q.Nəcəfzadənin, M.Abdullanın, T.Talıblının, B.Əlibəylinin və bir çox başqalarının Hidayətə ünvanlanan ürək sözləri, resenziya və məqalələri onun ədəbiyyatımızdakı yeri, çəkisi, ədəbi siqləti barədə məlumat verir, şəxsiyyətinin bütün yönlərdən işıqlandırılmasına yardımçı olur. Bu kitabı sona qədər oxuyan oxucu Azərbaycanımızın ünlü bir sənətkarının keçdiyi keşməkeşli yaradıcılıq, ağır, çətin, mübarizələrlə dolu olan şərəfli ömür yolunu yetərincə izləyir, onun bir şəxsiyyət kimi formalaşmasında zamanın, mühitin ağır sınaqlarının əvəzsiz rolunu etiraf etməli olur.

"Zəngəzurda doğuldum" kitabında respublikamızın görkəmli tənqidçi və ədəbiyyatşünaslarının tədqiqat xarakterli məqalələri Hidayət yaradıcılığının ədəbi prosesdə danılmız yerini müəyyən edir, zaman-zaman diqqət hədəfi olduğunu aşkarlayır, Hidayət şəxsiyyətinə və yaradıcılığına marağın, diqqətin nədən qaynaqlandığının mənbəyinə, kökünə varmağa çalışır. Bu cəhətdən Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, professor, millət vəkili N.Cəfərovun Hidayətin altmış illiyinə həsr etdiyi "Milli ədəbiyyatdan milli siyasətə" məqaləsi qlobal məğzi, geniş ümumiləşdirmə imkanı, Hidayətin həm ədəbi, həm də ictimai xadim, dövlət adamı kimi uğurlu siyasi fəaliyyətini dəyərləndirmək baxımından çox səciyyəvidir.

Nizami müəllim Hidayətin ədəbiyyatdan-siyasətə qanunauyğun uğurlu keçidini təkzibolunmaz elmi dəlillərlə əsaslandırır, bu keçidin vətəndaşlıq yanğısından, vətən, xalq təəssübkeşliyindən qaynaqlandığını, zamanın, vaxtın qaçılmaz diqtəsi olduğunu özünəməxsus aydın, sərrast, inandırıcı təhkiyə tərzi ilə ifadə edir.

"80-ci illərin ortalarından Hidayətin publisistik fəaliyyətinin güclənməsi təsadüfi deyildi - həssas və çevik ziyalı təfəkkürü ona təlqin edirdi ki, dünyada nə isə böyük təbəddülatlar yaranmaqda, on illər boyu şəninə nəğmələr qoşulmuş "Sovet cəmiyyəti"ni təşkil edən xalqlar bir-biriylə haqq-hesab çürütməyə hazırlaşmaqda, onun mənsub olduğu xalq isə ciddi sınaqlarla üzləşməkdədir.

Təkcə Hidayət yox, tarixin özü də həyatını yenidən başlamalı oldu..."

Bu kitabda tanınmış tənqidçi və ədəbiyyatşünaslardan Y.Qarayev, P.Xəlilov, Y.Seyidov, İ.Kərimov, C.Səlimova, A.Nəbiyev, A.Xələfov, İ.Həbibbəyli, Q.Kazımov, H.Balıyev, Ə.Ağayev, V.Yusifli, İ.Rəhimli. Ş.Xəlilli, N.Şəmsizadə, B.Əlibəyli, Q.Bayramov, A.Eminov, A. Binnətova və bir çox başqaları Hidayət yaradıcılığını elmi-tənqidi spektirdən keçirmiş, onun yaratdığı ədəbi nümunələrə vaxtaşırı öz alim-tənqidçi münasibətlərini bildirmişlər.

Hidayət bir yaradıcı şəxsiyyət kimi görkəmli elm adamlarının da diqqətindən kənarda qalmamışdır. "Zəngəzurda doğuldum" kitabına Azərbaycanın məşhur elm xadimlərinin də məqalə və yazıları daxil edilmişdir. B.Budaqov, M.Mərdanov, B.Ağayev, Ə.Əmiraslanov kimi tanınmış simaların qələm dostumuzun çoxyönlü yaradıcılığına müraciəti onun cəmiyyətin bütün təbəqələrinin maraq dairəsində olduğunun əyani sübutudur.

Hidayətin bir dramaturq, teatr xadimi kimi fəaliyyəti də (on altı il böyük bir teatra rəhbərlik etmişdir) diqqətdən kənarda qalmamış, ayrı-ayrı görkəmli sənət adamları tərəfindən layiqincə qiymətləndirilmişdir.

Bu cəhətdən C.Səlimovanın, A.Kazımovun, İ.Piriyevin, İ.Rəhimlinin, İ.Kərimovun, M.Fərzəlibəyovun, T. Abdullayevanın, S.Mirzəyevanın və

bir çox dəyərli sənət adamlarının məqalələri dərin əhəmiyyət kəsb edir, kitabın məzmun və mündəricəsinə bir dəqiqlik, əyanilik, həyatilik və canlılıq gətirir.

Bakıya köçdükdən sonra Hidayət yaradıcılığı yüksələn bir xətlə inkişaf etdi, mövzu və intellekt baxımından daha da zənginləşdi, "Gənclik" nəşriyyatındakı naşirlik fəaliyyətini də bura əlavə etsək, onun bir yazıçı-vətəndaş, dövrün siyasi oyunlarına meydan oxuyan alovlu publisist obrazı geniş oxucu auditoriyası qazandı. 90-cı illərin sonunda xalqımızın başladığı azadlıq hərəkatında Hidayətin öz rolu, öz dəsti-xətti vardı. O, qələmi ilə vuruşurdu, cəmiyyətdə olan bütün haqsızlıqlara qarşı mübarizə aparır, öz yazıçı-vətəndaş mövqeyini vaxtlı-vaxtında bildirməyə çalışırdı. Baş verən ictimai - siyasi hadisələrə kəskin yazıçı müdaxiləsi ona bir populyarlıq gətirir, get-gedə daha çox tanınırdı. Adı hər yerdə hörmət və ehtiramla çəkilirdi.

Bir-birinin ardınca nəşr etdirdiyi şeir, nəsr kitabları, qəzetlərdə və jurnallarda dərc olunan məqalələri, ekran və efirdəki dərin məzmunlu çıxışları Hidayət imzasına sözün həqiqi mənasında böyük bir məhəbbət oyatmışdı. Bax elə buna görə də 1992-ci ilin bir yay günündə onun haqqında verilən prezident fərmanını hamı-istər qələm dostları və istərsə də çoxsaylı oxucuları təbii qarşıladı. Açığını deyək ki, onun geniş erudisiyası, hərtərəfli şəxsiyyəti, çoxyönlü ədəbi və siyasi fəaliyyəti üçün bir nəşriyyat, o nəşriyyatın baş redaktorluğu çox kiçik, çox məhdud sahə idi. Hidayətin səsi-ünü bütöv bir ölkəni əhatə edirdi, onun geniş yaradıcılıq imkanları ölkənin hüdudlarını çoxdan adlayıb keçmişdi.

Belə bir məqamda prezident fərman verdi və Hidayət dövlət müşaviri kimi çox məsul bir işə dəvət olundu. O, on dörd ildən artıqdır ki, bu şərəfli və ağır dövlət işində ləyaqətlə çalışır. Bu gün ölkəmizdə milli münasibətlərin problemsizliyi, ağrısızlığı yazıçı Hidayətin - dövlət müşavirinin uzun illər apardığı gərgin və səmərəli işinin nəticəsi, yekunu kimi qiymətləndirilməlidir.

"Zəngəzurda doğuldum" kitabında bütün bu məsələlər ayrı-ayrı müəlliflər tərəfindən ətraflı şəkildə təhlil olunur, ən xırda detallarına qədər diqqət önünə çıxarılır. Bütün bunlar Hidayətin Bakıya köçəndən sonra qazandığı uğurlardır.

Lakin onun bir insan kimi itirdikləri də kitabda dönə-dönə vurğulanır, qələm dostları, Hidayətsevərlər onun ağrı-acılarını bölüşür, zamanın amansız hökmünə təəssüflənir, Hidayətin oğul itkisinə, torpaq, vətən itkisinə ürəkdən acıyırlar.

Xalq şairi Zəlimxan Yaqub yazır: "Ömrünün əllinci baharı tamam olan gün anasını itirən bu kişi ömrünün kamil çağlarında gözünün nurunu, doğma balasını - Xəzərini də itirdi. İndi fikir ver, əziz oxucu! Bir insana tanrı nə qədər dağ çəkər. Anasını itirən, oğlunu itirən, torpağını itirən bir şairin üzü gülər, eyni açılarmı?! Çətin, çox çətin!!!"

Allah ona bu dərdlərin müqabilində şair istedadı, ictimai xadim olmaq, dövlət işlərində, dövlətçilikdə özünə layiq yer tutmaq, bir-birindən gözəl tale kitabları yazmaq xoşbəxtliyi də verdi.

Hidayətin bu ağrılı tərəfini ürəyinə, dilinə, yaradıcılıq kredosuna daim sədaqətli olan qələm dostumuz Tofiq Abdin də "Qüssəli görüş" adlanan məqaləsində yetərincə duyub və şərh edib.

Hidayət bir sıra qonşu ölkələrdə də yada düşən, adı, imzası hörmətlə çəkilən şairlərdəndir. Kitaba xarici ölkələrin mətbuatında dərc olunan bir sıra nümunələr də daxil edilmişdir. Jan Poladın, Yəhya Taşdələnin, Cansuq Çarkvianin yazıları bu qəbildəndir. Bu yazıları oxuyanda adam qürur hissi keçirir, Hidayətin ölkəmizdən kənarda da öz çəkisi, ədəbi boy-buxunu ilə görünməsinə fərəhlənir.

Nəhayət, sözümüzün sonunda Hidayətin bu kitabının tərtibçisi, "Hidayət" adlı biblioqrafik kitabın müəllifi, tanınmış biblioqraf, zəhmətkeş tədqiqatçı, peşəkar jurnalist Bəybala Ələsgərovun zəhmətini, istək və sevgisini, bu kitabın ərə-ərsəyə gəlməsində böyük əməyini xüsusi olaraq qeyd etmək istəyirik.

Bu kitabda Bəybala müəllim həm də "Zəngəzurdan başlanan yol" adlı tutumlu, geniş həcmli, tədqiqat xarakterli məqaləsi ilə çıxış edir.

Bütövlükdə kitabdan aldığımız təəssürat çox güclüdür. Bu kitab bizim tanıdığımız doğma Hidayəti indiyədək duyub-sezmədiyimiz təzə çalarlarla yenidən bizə tanıtdı. Kitab ədəbiyyatşünaslığımıza və Hidayətsevərlərə ən qiymətli hədiyyədir.

Vaxtilə Hidayət şeir kitablarından birini "Zirvə cığırı" adlandırmışdı. Artıq bu cığır böyüyüb, şaxələnib, böyük bir yola çevrilib. Bizcə bu yol sözün zirvəsinə gedən yoldur. Dostumuz bu yolda səbrlə, dözümlə irəliləyir...

***Musa ƏLƏKBƏRLİ,***
***Yaşar VƏLİYEV***